# Azərbaycan güclü idman ölkəsi olduğunu növbəti dəfə nümayiş etdirdi



**Uğurla başa çatan I Avropa Oyunları tarixə qovuşdu. Müstəqilliyinin bərpasından sonrakı dövr ərzində çoxlu sayda böyük uğura imza atan Azərbaycan Respublikası Avropada ilk dəfə keçirilən bu idman yarışlarını layiqincə təşkil etməklə öz tarixini daha bir möhtəşəm nailiyyətlə zənginləşdirdi. Respublikamız təkcə yüksək evsahibliyi nümunəsi ortaya qoymadı. Həm də sübut etdi ki, iradə, qətiyyət olan yerdə hər şey mümkündür.**

Məlumdur ki, I Avropa Oyunlarının Bakıda keçirilməsi haqqında qərar 2012-ci ilin dekabrında Romada Avropa Olimpiya Komitəsinin Baş Assambleyasında qəbul edilmişdi. O zaman bu qərarın qəbul edilməsində bir neçə amil öz rolunu oynamışdı. Bunlar Azərbaycanın inkişafı, siyasi-ictimai sabitliyi, beynəlxalq tədbirlərin təşkilində ortaya qoyduğu ideal təşkilatçılıq, idman ölkəsinə çevrilməsi, o cümlədən son 15 ildə idman infrastrukturunu tamamilə yeniləməsidir. Bəli, ölkəmiz son 12 ildə inkişaf tempinə görə dünyanın öncülləri sırasındadır. Azərbaycanın siyasi-ictimai sabitliyini isə heç bir qüvvə pozmaq iqtidarında deyil. Beynəlxalq tədbirlər məkanına çevrilən ölkəmizdə həmçinin 40-dan artıq yeni olimpiya idman kompleksi və digər idman qurğuları inşa olunub. İdman sahəsində gerçəkləşdirilən dövlət siyasəti, Olimpiya ideallarının təbliği, idmanın maddi-texniki bazasının möhkəmləndirilməsi, tikilən müasir olimpiya kompleksləri və digər tədbirlər nəticəsində ölkəmiz mötəbər beynəlxalq idman yarışlarının keçirildiyi məkana, dünyanın idman mərkəzlərindən birinə çevrilib. Bütün bunlar təsdiq edirdi ki, Azərbaycanın Avropa Oyunlarına evsahibliyi etməyə haqqı çatır və Avropa Olimpiya Komitəsi bu reallıqları nəzərə aldı.










O zaman bəzi xarici dairələrdə Azərbaycanın bu idman yarışmasını lazımi səviyyədə təşkil edəcəyinə inana bilmirdilər. Lakin Azərbaycan iki il yarım ərzində ən mükəmməl hazırlıq işlərini yüksək səviyyədə həyata keçirdi və bütün Avropaya nümunə göstərdi. Hazırlıq işlərinə başlananda Azərbaycanın cəmi iki ildən bir qədər artıq vaxtı var idi. Bu müddətdə Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi I Avropa Oyunlarının Təşkilat Komitəsi əzmkar, yorulmaz və gərgin fəaliyyəti ilə bu idman müsabiqəsinin qüsursuz keçirilməsi üçün əlindən gələn hər şeyi etdi. Müddətin az olmasına baxmayaraq, Təşkilat Komitəsi hazırlıq işlərini vaxtından əvvəl başa çatdırdı. Həmin dövrdə Bakıda 5 yeni və möhtəşəm idman qurğusu inşa edildi. Bunlar Bakı Olmpiya Stadionu, Milli Gimnastika Arenası, Bakı Su İdmanı Sarayı, Bakı Atıcılıq Mərkəzi və Veloparkdır. Digər idman kompleksləri ən müasir standartlar səviyyəsində yenidən quruldu. Atletlər və Media kəndləri xarici qonaqları heyran etdi. Bütün bunlar dünyada idman ölkəsi kimi tanınan, Olimpiya hərəkatına dəstəyi dövlət siyasətinin əsas istiqamətlərindən biri seçən Azərbaycanın uğurlu inkişafının göstəricisidir.

İyunun 29-da I Avropa Oyunlarında qalib gəlmiş idmançılarımız, onların məşqçiləri, Azərbaycan idman ictimaiyyətinin nümayəndələri və Oyunların təşkilində xidmətləri olan xarici tərəfdaşlarla görüşdə Prezident İlham Əliyev Təşkilat Komitəsinin işi barədə deyib: *“Mən bu gün Təşkilat Komitəsinin fəaliyyətini xüsusi qeyd etmək istəyirəm. Çünki Təşkilat Komitəsinin çox böyük və gərgin fəaliyyəti olmuşdur. Təbii ki, ictimaiyyət tam şəkildə bu fəaliyyətin nədən ibarət olduğunu bilə bilməz. Çünki Təşkilat Komitəsinin tədbirləri mütəmadi qaydada keçirilirdi. Ancaq ictimaiyyətə o qədər də geniş məlumatlar verilmirdi. Hər bir xırda məsələ üzrə bütün işlər ən yüksək səviyyədə görülmüşdü və məhz buna görə Oyunların keçirilməsində heç bir problem yaşanmadı. Təşkilat Komitəsinə rəhbərlik etmiş Mehriban Əliyevanın böyük fəaliyyətini xüsusilə yüksək qiymətləndirirəm. O, bu Oyunların keçirilməsinə çox böyük töhfə vermişdir. Deyə bilərəm ki, bu Oyunların bu səviyyədə keçirilməsinə öz canını qoymuşdur. Mən Təşkilat Komitəsinin tərkibini müəyyən edərkən tam əmin idim ki, bu tərkibdə bu komitə ən yüksək nəticə göstərə bilər. Çünki burada həm təcrübə, həm peşəkarlıq və ən önəmlisi xalqa, dövlətə sevgi, məhəbbət var idi və var. Bu, ümumiyyətlə, ölkəmizin əldə etdiyi uğurların əsas şərtidir”.*

Həqiqətən də Azərbaycan I Avropa Oyunlarını ən yüksək səviyyədə təşkil etdi. Bakıya ilk dəfə gələn xarici qonaqlar xalqımızı daha yaxından tanıdılar. I Avropa Oyunlarının Bakıda keçirilməsi həm də ölkəmizin dünyada təbliği oldu. Lakin o da məlumdur ki, əhalisinin mütləq əksəriyyəti müsəlman olan Azərbaycanın uğurlarını həzm edə bilməyən müəyyən xarici dairələr də var. Onlar hələ Oyunlar başlamazdan əvvəl Azərbaycana qarşı şər-böhtan kampaniyasına başlamışdılar. Erməni lobbisi və ermənipərəst dairələr I Avropa Oyunları ərəfəsində də Azərbaycana qarşı hücuma cəhd göstərdilər, hətta AŞ PA-da Azərbaycanla bağlı qərar qəbul etdilər. Lakin həmişəki kimi, yenə də onların riyakar fəaliyyəti nəticəsiz qaldı, iflasa uğradı. Azərbaycan I Avropa Oyunlarını ən yüksək səviyyədə təşkil edib anti-azərbaycançı dairələrin bütün məkrli planlarını alt-üst etdi.

Respublikamızda mədəniyyətin, təhsilin, səhiyyənin və idmanın inkişafında səmərəli fəaliyyətinə, Azərbaycan xalqının mədəni irsinin beynəlxalq miqyasda geniş təbliğinə və I Avropa Oyunlarının təşkilində böyük xidmətlərinə görə “Heydər Əliyev” ordeninə layiq görülən Mehriban xanım Əliyeva təltifetmə mərasimindəki çıxışı zamanı bu məsələyə də toxunub və Prezident İlham Əliyevə xitabən deyib: *“Müstəqil Azərbaycanın hər bir qələbəsinin arxasında Sizin əməyiniz, biliyiniz, iradəniz durur. Çox sağ olun ki, biz bu gün qüdrətli, sabit, öz sözünü deyən və öz maraqlarını qoruyan dövlətin vətəndaşıyıq. Çox sağ olun ki, Sizin və Azərbaycan xalqının birliyi nəticəsində ölkəmiz belə inanılmaz nailiyyətlərə imza atıb. Oyunlara hazırlıq zamanı bizə göstərdiyiniz dəstəyə görə çox sağ olun. Ən çətin məqamlarda, ən dramatik anlarda Siz bizə arxa oldunuz. Sizin ölkəmizə, xalqımıza olan inamınız heç bir şübhə qoymurdu ki, hər şey əla olacaq və biz yenə də qələbə çalacağıq. Siz bir daha bütün dünyaya sübut etdiniz ki, heç bir qara qüvvə bizi hədəf seçib qorxuda bilməz və ədalət, xoş niyyət, xalqla birlik hər zaman zəfər çalacaq”.*

Bir sözlə, Azərbaycan iyun ayında tarixdə ilk dəfə keçirilən bu Oyunları möhtəşəm təşkil etdi. Həmin günlərdə dünya ölkəmizin həm nümunəvi evsahibliyini, həm də xalqımızın nəyə qadir olduğunu gördü və Azərbaycan I Avropa Oyunlarının keçirilən ilk ölkə kimi adını tarixə qızıl hərflərlə yazdı.

***Rəşad CƏFƏRLİ,***
***“Azərbaycan”***